# *Deməyi bizdən*

***Akif MƏMMƏDOV***
***"Futuroloq" AFTK-nın müəllimi,***
***pedaqoji elmlər namizədi***

Test üsulu ilə qəbul imtahanlarını aparmaq bu gün, demək olar ki, əksəriyyət tərəfindən qəbul olunur, təriflənir. Ancaq bu tərifləri ümumiləşdirəndə görürsən ki, hamı testin bu "gözəlliyinə" vurulub: o rüşvətin qarşısını alır, obyektivliyə şərait yaradır. Əslində bu elə çox şey deməkdir, ancaq hər şey demək deyil. Elə ona görə də birinci və ikinci il testin bu "gözəlliyinə" görə onun başqa eyiblərinə göz yumuldu. Keçən ilki qəbuldan sonra pedaqoji ictimaiyyət belə qərara gəldi ki, testin "eyib"lərini aradan qaldırmaq üçün də fikirləşməyə dəyər. Başqa sözlə, testin özünü və onunla qəbul imtahanını köçürmək mexanizmini təkmilləşdirmək yönündə təkliflər verildi. Hamı da (hətta TQDK) onları bəyəndi. Ancaq bu ilki müşahidələr göstərir ki, nəinki təkliflər həyata keçirilməyib və bu istiqamətdə işlər görülməyib, hətta testin "təmizliyi" də şübhə altına alınıb... Bizim məsələnin ikinci tərəfi ilə işimiz yoxdur. Gəlin görək, testlərdəki qüsurlar nədən ibarətdir və bu qüsurlar bizə imkan verirmi ki, deyək: "Biz Azərbaycanın gələcək qurucularını düzgün seçib ali məktəblərə qəbul etmişik?".

Fikirlərimi ana dili və ədəbiyyat üzrə tətbiq olunan testlər əsasında izah edim:

1. Testlərin əksəriyyəti abituriyentin biliyini, düşünə bilmək, mühakimə yürütmək bacarığını yox, sadəcə olaraq, yaddaşını yoxlamağa xidmət edir. "A" variantındakı 1, 2, 7, 9, 10, 13, 15, 16, 19, 24, 28, 31, 33, 34, 36, 37, 38, 44; "B" variantındakı 1, 2, 7, 9, 10, 15, 16, 19, 25, 26, 31, 33, 37, 38, 39, 40-cı və s. testlər məhz belədir.

2. Keçən il verilən və böyük əksəriyyət tərəfindən qəbul olunan təkliflərdən biri də belə idi ki, testlər çətinlik səviyyəsinə görə dərəcələrə bölünür ("asan", "orta", "çətin") və qəbula düşən testlərdə də say etibarilə asanlara üstünlük

verilsin. “Asan” testin özü də abituriyenti müəyyən səviyyədə düşündürə bilər. Təəssüf ki, ana dili və ədəbiyyat testlərinin içərisində “asan” testlərlə yanaşı, primitiv testlərə də təsadüf edilir. “A” variantındakı 1-ci testdə hərflərdə dodaqlanmayan incə saitləri, 13-cü testdə “Dəhnamə” əsərinin Xaqaninin olub-olmasını müəyyənləşdirmək tələb olunur. “B” variantındakı 33-cü testdə soruşulur: “S.Rəhimovun ən böyük romanı hansıdır?”. Primitivlik göz qabağındadır.

3. Yaxşı olar ki, testlərdə abituriyentin biliyini, qabiliyyətini aşkarəcəli məsələlər soruşulmasın. Ola bilsin ki, abituriyent N.Gəncəvinin əsərlərinin məzmununu, ideyasını... pis bilmir, ancaq poemaların yazılma tarixlərini unudub. Əsas isə birinci məsələdir, elə onu da soruşmaq lazımdır. Ancaq testlərdə Nizami poemalarının yazılma tarixi və s. bu kimi faktlar ön plana çəkilir.

4. Elə linqvistik vahidlər (leksik, morfoloji və s.) var ki, onların hansı funksiya daşıdığını ancaq müvafiq mətn, cümlə daxilində müəyyənləşdirmək olar. Bunları ayrı-ayrı təqdim edib qrammatik və s. funksiyalarını tapmağı tapşırmaq abituriyenti dağa-daşa salmaqdan başqa bir şey deyil. “B” variantındakı 7-ci testdə “O”-nun necə əvəzlik olması (əslində şəxs də ola bilər, işarə də), 15-ci testdə - ancaq, -ası və s. bu kimi şəkilçilərin feili sifət şəkilçisi olmaları (feili sifət də olar, forma şəkilçisi də) ayrıca təqdim edilərək soruşulur.

5. Testlərin bəzilərində isə əməlli-başlı səhvə yol verilir. “B” variantındakı 13-cü testə fikir verək. 13. “Motor” sözünün fonetik təhlilində hansı mərhələdə səhvə yol verilmişdir?

   A. Bu sözdə 4 səs (m, o, t, o, r) və 5 hərf (em, o, te, o, er) var.

   B. İki hecalı sözdür, vurğu ikinci hecaya düşür.

   C. O qalın, dodaqlanan saitdir.

   D. m, r cingilitli, t kar samitdir.

E. Sözdə dodaqlanan qalın saitlərin ahəngi gözlənilmişdir.

Göründüyü kimi, burada A və E mərhələsində səslər düz göstərilməyib, əslində m, a, t, o, r səsləri var. E mərhələsindəki hökm də səhvdir. Çünki “motor” sözü “mator” şəklində tələffüz edilirsə, demək, dodaqlanan qalın saitlərin ahəngi də gözlənilməyib, pozulub. Demək, iki cavab düzdür. Abituriyent hansını götürsün?

Beləcə səhvlərin, qüsurların, çatışmazlıqların sadalanmasını davam etdirmək olar. Ancaq, məncə, dediklərimiz də müəyyən nəticə çıxarmağa əsas verir. Qoy əlaqədar təşkilatlar bir şey fikirləşsinlər.

***“Futuroloq” qəzeti, may 1995***